ELM 19 dekabr (№41).- S.5.

# Akademik İsa Həbibbəyli görkəmli türkmən ədəbiyyatşünası Annaqurban Aşirovun vəfatı ilə əlaqədar başsağlığı verib



**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli görkəmli türkmən ədəbiyyatşünası, professor Annaqurban Aşirovun vəfatı ilə əlaqədar Türkmənistan Elmlər Akademiyasının prezidenti professor Allaberdi Aşirova başsağlığı verib.**

Başsağlığında deyilir:

*"Hörmətli Allaberdi müəllim!*

*Görkəmli türkmən ədəbiyyatşünası, professor Annaqurban Aşirovun vəfatı xəbərini Azərbaycan Milli Elmlər Akademiyasında dərin kədər hissi ilə qarşıladıq.*

*Professor Annaqurban Aşirov türkmən ədəbiyyatının görkəmli tədqiqatçılarından biri idi. Türkmən ədəbiyyatının beynəlxalq miqyasda tanıdılmasında Annaqurban Aşirovun mühüm xidmətləri olmuşdur. O, türkmən ədəbiyyatşünaslıq elmini beynəlxalq aləmdə yüksək səviyyədə təmsil etmişdir.*

*Türkmən ədəbiyyatı və ictimai fikrinə aid nadir əlyazmaların üzə çıxarılıb tədqiqata cəlb olunması və nəşr edilməsində professor Annaqurban Aşirovun böyük xidmətləri vardır. Türkmən ədəbiyyatının banisi Məhtimqulu Fəraqinin zəngin irsinin toplanılması, tədqiqi və nəşri yollarında Annaqurban Aşirov misilsiz xidmətlər göstərmişdir.*

*Azərbaycan - Türkmənistan elmi və ədəbi-mədəni əlaqələrinin inkişaf etdirilməsində professor Annaqurban Aşirovun xidmətləri xüsusi olaraq qeyd edilməlidir. Görkəmli türkmən aliminin Azərbaycandakı dostları və həmkarları onun Elmlər Akademiyalarımız və alimlərimiz arasında elmi əməkdaşlıq körpülərinin salınmasındakı xidmətlərini böyük ehtiramla qiymətləndirirlər.*

*Professor Annaqurban Aşirovun dünyasını dəyişməsi Türkmənistan üçün olduğu kimi, Azərbaycan elmi ictimaiyyəti üçün də ağır itkidir. İnanırıq ki, çoxsaylı yetirmələri və davamçıları onun adı ilə bağlı olan elmi ənənələri davam etdirəcək, xatirəsini yaşadacaqlar.*

*Azərbaycan Milli Elmlər Akademiyası adından görkəmli türkmən alimi və unudulmaz dostumuz Annaqurban Aşirovun vəfatı ilə əlaqədar qardaş Türkmənistana başsağlığımızı çatdırır, kədərinizə şərik oluruq.*

*Allah rəhmət eləsin!*

***Hörmətlə,***

***AMEA-nın prezidenti***
***akademik İsa Həbibbəyli"***